**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamına əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli 9 nömrəli Sərəncamına əlavə olaraq, aşağıdakı şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri təyin edilsinlər:

1.1. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri – **Muxtar Bahadur oğlu Babayev**;

1.2. Azərbaycan Respublikasının gənclər və idman naziri – **Azad Arif oğlu Rəhimov**;

1.3. Azərbaycan Respublikasının mədəniyyət naziri – **Əbülfəs Mürsəl oğlu Qarayev**;

1.4. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri – **Yavər Talıb oğlu Camalov**;

1.5. Azərbaycan Respublikasının səhiyyə naziri – **Oqtay Kazım oğlu Şirəliyev**;

1.6. Azərbaycan Respublikasının təhsil naziri – **Ceyhun Əziz oğlu Bayramov**;

1.7. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri – **Hicran Kamran qızı Hüseynova**;

1.8. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri – **Fuad Rauf oğlu Muradov**;

1.9. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri – **Mübariz Qəhrəman oğlu Qurbanlı**;

1.10. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri – **Səfər Məmməd oğlu Mehdiyev**;

1.11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri – **Tahir Yaqub oğlu Budaqov**;

1.12. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri – **Kərəm Əvəz oğlu Həsənov**;

1.13. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri – **Fuad Hümbət oğlu Nağıyev**;

1.14. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri – **Qoşqar İlahi oğlu Təhməzli**;

1.15. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi – **Vüsal Əfqan oğlu Hüseynov**;

1.16. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi – **Arzu Yusif oğlu Rəhimov**.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il
№22